Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (TSİİL) "Pedaqoji kadrların ixtisasartırma təhsilinin müasirləşdirilməsi" 2-ci komponentinin icra planına uyğun olaraq, 2012-2013-cü tədris ilində respublikanın ümumtəhsil məktəblərinin V siniflərində dərs deyəcək müəllimlərin yeni fənn kurikulumlarının tətbiqi sahəsində nəzəri və praktik hazırlığını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. 2012-2013-cü tədris ilində Naxçıvan MR-in, respublikanın şəhər və rayonlarının dövlət ümumtəhsil məktəblərinin V siniflərində dərs deyəcək müəllimlər üçün fənn kurikulumlarının tətbiqi üzrə 2012-ci il iyun-sentyabr aylarında 60 saatlıq (10 günlük) təlim kursları təşkil edilsin.

2. Təlim kurslarının proqramı təsdiq edilsin (əlavə olunur).

3. Nəzərə alınsın ki:

3.1. Naxçıvan MR-də təlim kursları Təhsil Problemləri İnstitutunun Kurikulum Mərkəzinin əməkdaşlarının keçirdiyi "Öyrədənlərin öyrədəni" kurslarında iştirak edərək təlimçi sertifikatı almış yerli mütəxəssislər tərəfindən aparılır.

3.2. Respublikanın şəhər və rayonlarında təlim kursları TSİİL çərçivəsində keçirilmiş tenderlər nəticəsində uyğun iqtisadi regionlar üzrə bu təlimləri keçirmək hüququ qazanmış təşkilatlar tərəfindən aparılır (siyahı əlavə olunur).

3.3. Bilavasitə Təhsil Nazirliyinin tabeliyində olan ümumi təhsil müəssisələrinin 2012-2013-cü tədris ilində V siniflərdə dərs deyəcək fənn müəllimləri həmin müəssisələrin yerləşdikləri ərazilərdə, məcburi köçkün məktəblərinin müəllimləri isə məskunlaşdıqları şəhər və rayonlarda təşkil edilən təlim kurslarına cəlb olunurlar.

3.4. Təlim kursunu uğurla başa vurmuş müəllimlərə Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş vahid formada sertifikat verilir.

3.5. Ümumtəhsil məktəblərinə yeni işə qəbul olunan və V siniflərdə dərs deyəcək müəllimlər üçün 2012-ci ilin sentyabr ayı ərzində təlim kursları təşkil edilə bilər.

4. Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri:

4.1. 2012-2013-cü tədris ilində təlim kurslarına cəlb olunacaq fənn müəllimlərinin siyahısını dəqiqləşdirsinlər, V siniflərdə daha səriştəli və yüksək peşəkarlıq səviyyəsinə malik fənn müəllimlərinin işləməsini təmin etsinlər.

4.2. Təhsil Nazirliyinə müntəzəm olaraq məlumatların verilməsini təmin etmək məqsədi ilə təlim kurslarının təşkili üzrə təhsil şöbəsinin (idarəsinin) əlaqələndiricisini və kurs keçirilən məktəblərə təhkim olunan məsul şəxsləri müəyyənləşdirsinlər.

4.3. Təhsil şöbəsinin (idarəsinin) əlaqələndiricisinin, kurs keçirilən məktəblərə təhkim olunan

əməkdaşlarının, hər bir fənn üzrə təlim kurslarına cəlb edilən müəllimlərin siyahısını əmrlə təsdiq etsinlər və əmrin surətini Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinə təqdim etsinlər.

4.4. Fənlər üzrə təlim kurslarını həyata keçirən təşkilatla birlikdə 2012-ci ilin iyun-sentyabr aylarında keçiriləcək kursların cədvəlini tərtib etsinlər, məşğələlərin keçirilməsi üçün nəzərdə tutulmuş məktəblərdə lazımi şəraitin yaradılmasını, hər bir təlim otağının zəruri texniki vasitələrlə (kompyuter (noutbuk), proyektor) təchiz olunmasını təmin etsinlər.

4.5. Təlim kursları keçirilən məktəblərə təhkim olunan əməkdaşların səlahiyyətlərini müəyyənləşdirsinlər və təlim məşğələlərinin keçirilməsi, yekunda müəllimlərə sertifikatların verilməsi prosesində təlimçilərin işinə müdaxilənin yolverilməz olduğunu onların nəzərinə çatdırsınlar.

4.6. Təlim kurslarının yekunu barədə sertifikat almış müəllimlərin adlı siyahısı əlavə olunmuş geniş hesabatı 2012-ci il sentyabrın 15-dək Təhsil Nazirliyinə təqdim etsinlər.

5. Məcburi köçkün rayonlarının təhsil şöbələri (E.Şükürova, Z.İbrahimov, M.Bağırov, A.Həşimova, M.Vəliyev, V.Həsənova, M.Şükürov, A.Allahverdiyeva, Ş.Yusifov, T.Əliyev) ümumtəhsil məktəblərinin yerləşdiyi ərazilər üzrə 2012-2013-cü tədris ilində V siniflərdə dərs deyəcək müəllimlərin təlim kurslarında müntəzəm iştirakına ciddi nəzarət etsinlər.

6. Təhsil Problemləri İnstitutu (A.Mehrabov) Naxçıvan MR-nın ümumtəhsil məktəblərində 2012/2013-cü tədris ilində V siniflərdə işləyəcək müəllimlər üçün yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim kurslarının təşkili və keçirilməsində təhsil şöbələrinə və yerli təlimçilərə əməli köməklik göstərmək üçün Kurikulum Mərkəzinin əməkdaşlarının Naxçıvan MR-ə ezam olunmasını təmin etsin.

7. Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsi (F.Qədirov), TSİİL üzrə əlaqələndirici qrupun direktoru (E.Rüstəmov) təlim kurslarının təşkili, keçirilməsi və yekunlaşdırılmasında təhsil orqanlarına və təlimləri keçirən təşkilatlara əməli köməklik göstərilməsi üzrə müvafiq tədbirlərin yerinə yetirilməsini təmin etsinlər.

8. Monitorinq və qiymətləndirmə şöbəsi (T.Hacıyeva) təlim kurslarının monitorinqinin həyata keçirilməsi üçün əməkdaşların rayon və şəhərlərə ezam olunmasını və monitorinqin nəticələrinə dair arayışın müzakirəyə təqdim olunmasını təmin etsin.

9. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, həmçinin təlim kurslarının nəticələrinin kütləvi informasiya vasitələrində işıqlandırılmasını təmin etsin.

10. Ümumi şöbə (X.Fərəcov) əmrin əlavələri ilə birlikdə çoxaldılıb təhsil orqanlarına göndərilməsini təmin etsin.

11. Əmrin icrasına nəzarət Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinin müdiri F.Qədirova həvalə olunsun.

Əsas: Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin “Pedaqoji kadrların ixtisasartırma təhsilinin müasirləşdirilməsi” 2-ci komponentinin icra planı

***Misir Mərdanov***

***Azərbaycan Respublikasının təhsil naziri***

***25 may 2012-ci il***

***№ 976***

---

**Əlavə:**

1. Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim proqramı

2. 2012/2013-cü tədris ilində dövlət ümumtəhsil məktəblərinin V siniflərində dərs deyəcək müəllimlər üçün təlim kurslarını keçirəcək təşkilatların siyahısı